# Yeniliklərin tətbiqi üçün




**Artıq neçə ildir ki, nazirliyimiz tərəfindən bölgələrdə səyyar kollegiya iclasları keçməsi xoş əməyə çevrilib. Bu dəfə ki, tədbir Gəncə şəhərində təşkil olundu.**

Toplantıda mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, nazirliyin aparat rəhbəri Firudin Qurbanov və kollegiyanın digər üzvləri, Gəncə Şəhər Qazax, Ağstafa, Tovuz, Şəmkir, Samux, Göygöl və Gədəbəy Rayon İcra Hakimiyyəti başçıları iştirak edirdilər.

İclası Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov açaraq tədbir iştirakçılarını salamladı və xüsusi fərəh hissilə vurğuladı ki, prezident İlham Əliyevin 5 il ərzində 9 dəfə Gəncəyə səfər etməsi bu bölgənin iqtisadi və sosial inkişafını şərtləndirən başlıca amil olmuşdur. Bu gün respublikamızda inkişaf tempinə görə Gəncə xüsusi yerə malikdir. Və bu sırada mədəniyyətin də öz yeri vardır.

İnanıram ki, bu tədbir Gəncə və ətraf rayonların mədəni həyatında əhəmiyyətli rol oynayacaqdır.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev kollegiya iclasının iştirakçıları ilə əvvəlcə Gürcüstanda keçirilən Azərbaycan Mədəniyyət Günləri ilə bağlı təəssüratlarını bölüşdü. O, xarici ölkələrdə keçirilən Azərbaycan Mədəniyyəti Günlərinin ölkəmizi, onun zəngin tarixini və mədəniyyətini tanıtmaq baxımından xüsusi əhəmiyyətə malik olduğunu diqqətə çatdırmaqla yanaşı, qeyd etdi ki, beynəlxalq aləmə istiqamətlənmiş tanıtım layihələrinin uğurunu həm də yerli mədəniyyət müəssisələrinin layiqli işi şərtləndirir: "Məsələn, bu gün biz aşıq musiqimizin YUNESKO-nun Mədəni İrs Siyahısına daxil olunması təşəbbüsü ilə çıxış edirik.

Səylərimiz nəticəsində artıq bu musiqi Luvr muzeyində səslənir. Bəs Azərbaycanda, xüsusilə yerlərdə bu əvəzsiz musiqinin vəziyyəti necədir, onun təbliği, yeni nəslə ötürülməsi qənaətbəxşdirmi? Və yaxud muzeylərimiz, rəsm qalereyalarımız, dlgər mədəniyyət müəssisələrimiz Azərbaycana xaricdən gələn turistlərdə məmnunluq təəssüratı yaratmağa hazırdırlarmı? Bugünkü kolleglya iclasında məhz bu kimi suallara cavab axtaracağıq".

Nazirliyin regionlarla iş üzrə sektorunun müdiri Azəri Əhmədzadə iştirakçılara təqdim etdiyi arayışda Gəncə, Qazax, Göygöl, Ağstafa, Tovuz, Samux, Şəmkir və Gədəbəyin mədəni həyatının real mənzərələrini konkret faktlarla açıqladı. Nöqsanlar diqqətə çatdırılıb, müzakirəyə çıxarıldı. Hər bir rayon mədəniyyət və turizm şöbəsinin fəaliyyətinə ayrıca toxunulan məruzədə regionun ümumi problemlərindən doğan nöqsanlarla yanaşı, spesifik və subyektiv fəaliyyətdən irəli gələn çatışmazlıqlar da qeyd olundu. Məruzəçi iştirakçıların diqqətinə onu da çatdırdı ki, sözügedən şöbələrin fəaliyyətlərində uğurlu məqamlar da az deyil: "Lakin məqsədimiz nöqsanları üzə çıxarmaq və həll etmək olduğundan, əsasən çatışmazlıqlar üzərində dayanacağıq".

Gəncə şəhər və ətraf rayonların mədəniyyət və turizm şöbələrinin müdirləri söz alaraq öz sahələrinə aid səslənmiş nöqsan və çatışmazlıqlara dair izahat verdilər və perspektiv planlarını açıqladılar.

Hər çıxışçıdan sonra nazir müvafiq bölgələrin mədəniyyət müəssisələrinin fəaliyyətində üzə çıxarılmış nöqsanların hər biri ilə bağlı izahat tələb etdi, onların həlli üçün konkret göstərişlər verdi. O, kitabxana işi, turizmin inkişafı, mehmanxanaların lisenziyalaşdırılması, bölgənin spesfik mədəni irsinin üzə çıxarılması yönündə atılmalı addımlara diqqət göstərməyin, sadalanan çatışmazlıqlarla bağlı ciddi fəaliyyətin vacibliyini önə çəkdi. Mövcud çatışmazlıqlar, problemlər geniş şəkildə müzakirə edildi. Bölgələrin icra hakimiyyəti başçıları müzakirələrə qoşularaq məsələyə öz münasibətlərini bildirdilər.

Tədbirə nazir Əbülfəs Qarayev yekun verdi:

***"Bu kollegiya iclasında biz regionun mədəniyyət müəssisələrinin fəaliyyətinə geniş şəkildə baxa bildik, nöqsanların, problemlərin də olduğunu gördük. Bizim müzakirələrin də məqsədi bu idi ki, vəziyyətə real qiymət verib, düzgün fəaliyyət istiqamətlərini müəyyənləşdirək.***

***Bu gün Azərbaycan mədəniyyəti dünyaya çıxır, bu uğurlar bizi sevindirir. Təbii ki, bu uğurların genişlənməsində yerlərdəki mədənlyyət potensialının xüsusi yeri və rolu var. Siz də dünyada qazandığımız uğurları yerlərdəki layiqli işlərinizlə dəstəkləməlisiniz. Eyni zamanda təşəbbüskarlıq göstərərək müəssisələrin işinin canlanması, yeniliklərin tətbiqi üçün çalışmalısınız. Bu, bizim ölkəmiz və xalqımız qarşısında olan borcumuzdur.***

***Biz prezident İlham Əliyevin ümumi siyasətini mədəni sferada layiqincə yerinə yetirməliyik".***

**Aygün QOCAYEVA**

